P

# AzAK P007

## Məsafədən (kameral) qiymətləndirmə proseduru

## 1. Məqsəd

Bu prosedurun məqsədi AzAK-ın akkreditasiya fəaliyyətini həyata keçirərkən şəffaflığın və səriştəliliyin yoxlanılması üçün əsas olan müntəzəm qiymətləndirmə üsullarına xələl gətirmədən məsafədən qiymətləndirmə ilə bağlı məsələlərin necə idarə olunacağını və tətbiq ediləcəyini izah etməkdir.

## 2. Əhatə dairəsi

Bu sənədə məsafədən (kameral) qiymətləndirmə üsullarının hansı hallarda tətbiq oluna biləcəyi ilə bağlı məsələlər daxil edilmişdir.

## 3. Termin və təriflər

Bu prosedurda ISO/IEC 17000, ISO/IEC 17011 standartlarında, AzAK P005 prosedurunda, yerli qanunvericilik aktlarında və aşağıda qeyd olunmuş termin və təriflərdən istifadə edilmişdir:

**Qarışıq qiymətləndirmə** – məsafədən (kameral) və yerində qiymətləndirmə texnikalarının qarışığı (bu qiymətləndirməyə hibrid qiymətləndirmə də demək olar);

**İnformasiya, kommunikasiya texnologiyaları (İKT)** – informasiyanın yığılması, saxlanılması, axtarılması, işlənib hazırlanması, təhlili və ötürülməsinə xidmət edən texnologiya. Bu texnologiya smartfon, laptoplar, notbuklar, stolüstü kompüterlər, dronlar, video kameralar, ötürmə texnologiyaları, süni intellekt avadanlıqları və s. kimi proqram və aparat təminatını da əhatə edir.

## 4. Tətbiq

Məsafədən (kameral) qiymətləndirmə üsulları heç bir halda yerində qiymətləndirmənin nəticələrini təmin edə bilməz. Bu səbəbdən AzAK-ın əsas məqsədi yerində qiymətləndirmələrin yerləşmə yerində aparmasıdır. Sonrakı yerində qiymətləndirmələr arasındakı müddət 24 aydan çox ola bilməz (ISO/IEC 17011, 7.9.3-cü bənd). AzAK yerində qiymətləndirmənin həyata keçirilməsinin mümkün olmadığına dair qərar verərsə, yerində qiymətləndirmə ilə eyni məqsədə çatmaq üçün məsafədən qiymətləndirmə üsulundan istifadə edilə bilər. Yerində qiymətləndirmənin mümkün olmadığı hallara sağlamlıq, iqlim, siyasi qeyri-sabitlik, qiymətləndirmə komissiyasının üzvlərinin təhlükəsizliyi ilə bağlı riskləri, qiymətləndirmə komissiyasının fiziki iştirakının UQQ-nin fəaliyyətinə mənfi təsir etməsini (məsələn, yer çatışmazlığı, çirklənmə və s.), UQQ-nin fəaliyyətinin yalnız virtual sahədə həyata keçirildiyi üçün yerində qiymətləndirmənin mənasız olduğu halları misal göstərmək olar.

Qiymətləndirmə daha çox sənədlərin, qeydlərin və müsahibələrin nəzərdən keçirilməsinə əsaslandıqda qiymətləndirmə məsafədən həyata keçirilə bilər. Qiymətləndiriləcək tələblər otaqların şəraiti, avadanlıqların adekvatlığı və ya uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərinin şahid qiymətləndirilməsi ilə bağlıdırsa, yerində qiymətləndirmə üsulu seçilməlidir.

Şahid qiymətləndirməsinin bütün tələblərinə əməl etmək, qoyulmuş məqsədə çatmaq mümkün olduqda, şahid qiymətləndirməsi məsafədən (kameral) həyata keçirilə bilər. Şahid qiymətləndirməsi üçün məsafədən (kameral) qiymətləndirmənin istifadə olunması barədə qərar əvvəlcədən həyata keçirilmiş risk analizinə əsaslanır.

Risk analizinin həyata keçirilməsi zamanı AzAK aşağıdakıları nəzərə alır:

- Əvvəlki yerində qiymətləndirmədən keçən müddət;
- Müvafiq İKT avadanlığının mövcudluğu və həm UQQ, həm də qiymətləndirmə komissiyasının ondan səmərəli istifadə etmək bacarığı;
- UQQ-nin yerləşdiyi yerlə qiymətləndirmə komissiyasının üzvlərinin yerləşdikləri yer (tərcüməçilər daxil olmaqla) arasında vaxt fərqi;
- Qiymətləndirmə zamanı yerinə yetirilməli olan tələblər;
- Yoxlanılmalı tapıntılar və gözlənilən sübutların növləri;
- Şikayətlərin növləri və digər təhlil edilməli məsələlər;
- Qiymətləndiricilərin istifadəsinə veriləcək məlumatların rəqəmsallaşdırılması səviyyəsi;
- UQQ daxilində təhlükəsizliklə bağlı məhdudiyyətlər;
- UQQ-nin resurslarının və idarəetmə sisteminin sabitliyi;
- UQQ-nin fəaliyyəti, şəffaflığı və AzAK-la əməkdaşlıq səviyyəsi;
- Qiymətləndirmə komissiyasının say tərkibi və qiymətləndirmə müddəti;
- Qiymətləndiricilərin məsafədən (kameral) qiymətləndirmə üsulları və alətlərindən istifadə üzrə təlimi və təcrübəsi.

Məsafədən qiymətləndirmə üsullarının tətbiq səviyyəsi əvvəlki qiymətləndirmənin məsafədən olub-olmaması, 4.1-ci bənddə göstərilən xüsusi tələblərə cavab vermə səviyyəsi, UQQ tərəfindən təqdim edilən bildirişlər, təşkilatın strukturu, AzAK ilə əməkdaşlıq səviyyəsi, qurumun fəaliyyəti ilə bağlı risklər, akkreditasiya təcrübəsi, şikayətlər və apellyasiyalar, müntəzəm qiymətləndirmə nəticələri, mövcud sahə və əgər varsa, sahəyə əlavələrin edilməsi ilə bağlı tələbləri, bu sahələrin mürəkkəblik səviyyəsinə görə müəyyən edilə bilər. Bundan əlavə fors-major halların mövcudluğu məsafədən qiymətləndirmənin həyata keçirilməsini tələb edə bilər.

Məsafədən qiymətləndirmə variantı hər bir hal üçün ayrı-ayrılıqda araşdırılaraq qiymətləndirilir və onun hansı hallarda, hansı səviyyədə tətbiqinə AzAK tərəfindən qərar verilir.

UQQ üçün planlaşdırılmış iki ardıcıl qiymətləndirmənin hər ikisinin də yalnız məsafədən qiymətləndirmə üsulları ilə həyata keçirilməsi bu üsulla bağlı olan risklər baxımından məqsədəuyğun hesab edilmir. Amma fövqəladə hallar ilə bağlı UQQ-nın fəaliyyəti, məsafədən qiymətləndirmə vasitələri ilə səriştənin yoxlanılması imkanı, laboratoriyanın, inspeksiya və sertifikatlaşdırma orqanlarının cihaz, personal, təşkilati struktur və sertifikatlaşdırma sxemlərində əhəmiyyətli dəyişiklik olub-olmaması kimi risk fakorlarını nəzərə alaraq, məsafədən qiymətləndirmə üsullarının tətbiqi üçün fərqli qərar qəbul edilə bilər. Məsafədən qiymətləndirmə zamanı UQQ-nin fəaliyyətinin şahid qiymətləndirmələri ilə yoxlanması prosesi də eyni üsulla qiymətləndirilir.

Məsafədən (kameral) qiymətləndirmələr ilkin akkreditasiya qiymətləndirməsində tətbiq edilmir, lakin zəruri hallarda ilkin akkreditasiya qiymətləndirməsinin bir hissəsi kimi istifadə edilə bilər. Əgər müvafiq sxemin tələblərini yerinə yetirmək mümkün deyilsə, məsafədən (kameral) qiymətləndirmə həyata keçirilmir. Lakin uyğunluğun qiymətləndirilməsi fəaliyyəti virtual sahədə həyata keçirilirsə, məsafədən (kameral) qiymətləndirmə həyata keçirilə bilər.

Lazım gələrsə, illik qiymətləndirmələr məsafədən qiymətləndirmə üsullarının tətbiqi ilə həyata keçirilə bilər. Lakin ilkin akkreditasiya qiymətləndirməsinin nəticələri, qurumun

yerdəyişməsi, sahəyə əlavələrin edilməsi ilə bağlı tələbləri, şikayətlər və apellyasiyalar ilə əlaqədar olaraq illik qiymətləndirmədə məsafədən (kameral) qiymətləndirmə üsullarından istifadə etmək məqsədəuyğun olmaya bilər.

Məsafədən (kameral) qiymətləndirmə üsulları və bütövlükdə proses məlumatların qorunması barədə mövcud qanunvericiliyin tələblərinə cavab verməlidir. UQQ məsafədən (kameral) qiymətləndirmə üsulları və bütövlükdə proses barədə AzAK P010 “Şikayətlər və apellyasiya şikayətləri proseduru”na əsasən şikayət verə bilər.

Məsafədən (kameral) qiymətləndirmə fəaliyyəti, AzAK tərəfindən uyğun hesab edilən proqram təminatından istifadə etməklə həyata keçirilir. Bu zaman elektron vasitələrdən istifadə çirklənmə və təhlükəsizliklə bağlı risk, məxfiliklə bağlı problem (məsələn, əgər əvvəlcədən imzalanmış müqavilədə nəzərdə tutulmayıbsa, qiymətləndirmədə bilavasitə iştirak etməyən şəxslərin görüntülərinin çəkilməsi və s.) yaratmamalıdır. Əgər nəzərdə tutulmuş proqram təminatından istifadə etmək mümkün deyilsə, müəyyən bir avadanlıqla (məsələn, mikroskop üçün əlavə kameraların quraşdırılmasına ehtiyac varsa) bağlı məhdudiyyət varsa, məxfiliyin, təhlükəsizliyin təmin olunması ilə bağlı problemlər mövcuddursa (məsələn, səhiyyə, məhkəmə ekspertizası ilə bağlı qurumlar və s.), qiymətləndirmə üçün İKT imkanları kifayət etmirsə (məsələn, şahid qiymətləndirməsi zamanı səs, iy, dad, hiss etmə və fasiləsiz görüntünün təmin olunması və s. məcburidirsə), bu qiymətləndirmə üsulundan istifadə etmək bacarığı olan qiymətləndiricilər AzAK-da kifayət qədər deyilsə, risk analizinin nəticəsində UQQ-nin AzAK-la əməkdaşlığı zamanı şəffaflıq və effektivlik baxımında problemləri aşkar edilibsə, məsafədən (kameral) qiymətləndirmə həyata keçirilmir. UQQ-lərin və əgər varsa maraqlı tərəflərin razılığı alınmaqla qiymətləndirmə prosesi qeydə alına bilər (video və audio). AzAK bu qeydləri öz prosedurlarında müəyyən edilmiş müddətin sonunda ləğv edir. Bununla belə, qiymətləndirmə komissiyası tərəfindən qiymətləndirmə hesabatına daxil edilməsi nəzərdə tutulan bəzi sənədlərin (kalibrləmə sertifikatı, təyinat barədə sənəd, cihazın təsviri və s.) ekran görüntüsünü saxlaya bilər. Qiymətləndirmə müddəti başa çatdıqdan sonra sözügədən qeydlər silinməlidir.

Qiymətləndirmədə istifadə ediləcək infrastruktur haqqında məlumat məsafədən qiymətləndirmədən əvvəl AzAK tərəfindən UQQ-yə və qiymətləndirmə komissiyasına bildirilir və onun istifadəyə yararlılığı, xüsusilə ekran görüntüsünün paylaşılması və səsin idarəedilməsi barədə tərəflərin təsdiqləri alınır.

Məsafədən (kameral) qiymətləndirmə üsulları ilə yoxlanılacaq UQQ AzAK F007-01 “Məsafədən (kameral) qiymətləndirmə barədə məlumatın bəyan edilməsi və öhdəlik forması”nı imzalamalı və AzAK-a təqdim etməlidir. Qiymətləndirmədən əvvəl tərtib olunmuş planda fəaliyyətin tamamilə və ya bir hissəsinin məsafədən (kameral) qiymətləndiriləcəyi, məsafədən (kameral) qiymətləndirməni, yerində qiymətləndirməni (tamamilə, məsafədən (kameral) və ya qarışıq) həyata keçirəcək komissiya üzvləri barədə barədə qeydlər edilir. Aralıq iclaslarının müddətləri müəyyən edilir.

Açılış və qapanış iclası da daxil olmaqla qiymətləndirmə komissiyasının üzvlərinin, UQQ nümayəndələrinin və kuratorun müvafiq proqram təminatına girişi təmin olunmalıdır. Qiymətləndirmə komissiyası ehtiyac olduğu hallarda UQQ-nin girişinə məhdudiyyət qoymaqla öz aralıq iclaslarını keçirə bilərlər. Yerində qiymətləndirmə ilə müqayisədə məsafədən (kameral) qiymətləndirmə zamanı aralıq iclasları daha tez-tez keçirilə bilər. Hər bir komissiya üzvü və UQQ nümayəndələri qiymətləndirməyə aid qeydləri (məsələn: iştirakçı siyahısı və s.) AzAK-a təqdim edirlər.

Qiymətləndirmədən əvvəl sınaq məqsədilə qiymətləndirmə komissiyasının və UQQ nümayəndələrinin proqram təminatına girişi və istifadə imkanları kurator tərəfindən

təsdiqlənməlidir.

Qiymətləndirmədən əvvəl, qiymətləndirmə zamanı və qiymətləndirmədən sonra UQQ qiymətləndirmə komissiyasının qiymətləndirmədə yoxlamalı olduğu sənədləri və qeydləri AzAK-a elektron şəkildə ötürür. Yerində qiymətləndirmə ilə müqayisədə qiymətləndirmədən əvvəl UQQ-dən daha çox məlumat və sənədlər tələb oluna bilər.

### 4.1 Məsafədən (kameral) qiymətləndirmənin tətbiqi üçün xüsusi tələblər

4.1.1 Məsafədən qiymətləndirməni yerinə yetirmək üçün əlaqənin keyfiyyətinin (canlı video, audio və s.) kifayət qədər yetərli səviyyədə olmasına əmin olmaq lazımdır. Kifayət qədər geniş diapazon ilə internetə çıxış, verilənlər bazası və idarəetmə sisteminə məsafədən giriş, kifayət qədər uyğun kompüterlər, prosesdə istifadə oluna bilən audio və video ötürülməsində istifadə olunacaq avadanlıq (məsələn: səs-küyün qarşısını almaq üçün mikrofonlu qulaqlıq), qiymətləndirmənin gedişində yaranmış problemlərlə bağlı İKT-nin əvəz edilməsi, yeni İKT-nin istifadəsi və s. bu infrastrukturda nəzərə alınır. Qiymətləndirmə komissiyası tərəfindən tələb olunduğu zaman UQQ logistika və texniki aspektlər də daxil olmaqla məsafədən (kameral) qiymətləndirmə prosesində tələb oluna biləcək bütün səlahiyyətli personalın əlçatan olmasını təmin etməlidir;

4.1.2 UQQ məsafədən (kameral) qiymətləndirmə zamanı tələb oluna biləcək bütün xərcləri ödəməlidir. Bu öhdəliyə qiymətləndirmə komissiyasının lazım gəldikdə münasib iş mühiti ilə təmin olunması üçün lazım ola biləcək iclas otağının icarəsi, nəqliyyat, qarşılama xərcləri və s. zəruri olan xərclər daxildir;

4.1.3 AzAK-ın tələbi ilə UQQ tələb olunan məsafədən (kameral) qiymətləndirmənin yerinə yetirilməsinin mümkün olduğunu sübut etmək üçün AzAK işçilərinə və qiymətləndirmə komissiyasına əvvəlcədən məlumat/sübut təqdim etməlidir. Bura internet ötürmə qabiliyyətinin yoxlanılması, məqbul texnologiyanın mövcudluğu, məlumat idarəetmə sistemlərinə giriş və s. daxil ola bilər;

4.1.4 Məsafədən (kameral) qiymətləndirmə zamanı UQQ qiymətləndirmə komissiyası tərəfindən obyektiv sübutların əldə edilməsini təmin etmək üçün tədbirlər görməlidir. Bu tədbirlərə tətbiq oluna bildiyi hallarda qiymətləndirmə komissiyası tərəfindən istifadə üçün profillərin müəyyən edilməsi daxil edilməlidir;

4.1.5 Məsafədən (kameral) qiymətləndirmə həyata keçirilməsi zamanı əgər UQQ bu qiymətləndirmə texnikasına xas olan prosesləri təmin edə bilmirsə və ya qiymətləndirmə komissiyası məsafədən qiymətləndirməni kifayət qədər həyata keçirə bilmirsə, məsafədən qiymətləndirmə təkrarlana bilər, çatışmayan hissələr üçün yeni məsafədən (kameral) qiymətləndirmə aparıla bilər və ya AzAK-ın qərarından asılı olaraq yerində qiymətləndirmə aparıla bilər. Qiymətləndirmə üçün müəyyən edilmiş ümumi vaxt müddətinə əməl etməklə, qiymətləndirmə zamanı planda nəzərdə tutulmuş və ya tutulmamış müddətləri dəyişmək olar;

4.1.6 Məsafədən (kameral) qiymətləndirmənin həyata keçirilməsi zamanı qurum və qiymətləndirmə komissiyası qiymətləndirmənin məxfiliyini təmin etmək üçün lazım olan bütün zəruri tədbirləri görməlidir. Bu çərçivədə proqram təminatı ilə əlaqə yaradan insanların yerləşdiyi mühitlərə (qiymətləndirmə komissiyasının işlədiyi yer və UQQ-nin nümayiş olunan məkanları) qiymətləndirmə komissiyasının üzvlərindən və UQQ-də qiymətləndirmədə iştirak

edənlərdən başqa şəxslərin daxil olmasına və çıxmasına icazə verilməməlidir;

4.1.7 Nəticələr qapanış iclasından əvvəl qiymətləndirmə komissiyası tərəfindən layihə şəklində UQQ-yə təqdim edilir, UQQ tapıntıları təsdiq edir və ya əgər varsa, rəyini təqdim edir. UQQ-nin rəyindən sonra qiymətləndirmə komissiyası tapıntılarla bağlı fəaliyyəti yekunlaşdırır və qapanış iclasını keçirir. Qapanış iclasının sonunda UQQ tapıntıları imzalayır və onların qəbul edilməsinin təsdiqini qiymətləndirmə komissiyasına təqdim edir. Məsafədən (kameral) qiymətləndirmə nəticələrinə əsasən qiymətləndirmə hesabatı müəyyən olunmuş məhdudiyyətlər nəzərə alınmaqla (əgər varsa) yerində qiymətləndirmə nəticələrinə əsasən tərtib olunmuş hesabatla eyni cür tərtib olunur. UQQ-nin tapıntılara dair hər hansı şikayəti olduqda, AzAK P010 "Şikayətlər və apellyasiya şikayətləri proseduru"na uyğun olaraq AzAK-a müraciət edə bilər.

## 5. Səlahiyyət və məsuliyyətlər

| **Fəaliyyətlər** | **D** | **DM** | **QK** | **UP** | **KR** |
|---|---|---|---|---|---|
| Məsafədən qiymətləndirmənin keçirilməsi barədə qərarın verilməsi | Q | M | M | M | M |
| Məsafədən qiymətləndirmənin təşkili | - | M | M | T | Ə |
| Məsafədən qiymətləndirmənin keçirilməsi | - | M | T | Ə | M |

D:Direktor
DM:Direktor müavini
QK:Qiymətləndirmə komissiyası
UP:UQQ-nin personalı
KR:Kurator
Q:Qərar
T:Tətbiq
Ə:Əməkdaşlıq
M:Məlumat

## 6. Arxiv və qeydlər

Qeydlər AzAK P002 "Qeydlərin idarəolunması proseduru"na uyğun olaraq saxlanılır.

## 7. Əlaqəli sənədlər

- AzAK P005 "Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru";
- AzAK P010 "Şikayətlər və apellyasiya şikayətləri proseduru";
- AzAK F007-01 "Məsafədən (kameral) qiymətləndirmə barədə məlumatın bəyan edilməsi və öhdəlik forması";

- IAF ID 3 “Akkreditasiya orqanlarına, uyğunluğu qiymətləndirən qurumlara və sertifikatlaşdırılmış qurumlara təsir edən fövqəladə hallar və vəziyyətlərin idarəedilməsi üçün IAF-ın məlumat sənədi;
- IAF MD 4 “Audit/qiymətləndirmə məqsədilə informasiya və kommunikasiya texnologiyalarının istifadəsi üçün IAF məcburi sənədi”;
- IAF ID 12 “Məsafədən qiymətləndirmənin prinsipləri”;
- EA-2/21 “Məsafədən qiymətləndirmələr üçün rəhbəredici sənəd”.

## 8. Prosedurda edilmiş dəyişikliklər

| Dəyişiklik №si | Səhifə №si | Dəyişikliyin tarixi | Dəyişiklik səbəbi |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |